# GÖY QURŞAĞI UŞAQ JURNALI

6(46)

NOYABR DEKABR 2013



Şərifova Səbinə
Əzim Əzimzadə adına İncəsənət Kolleci

# mənim rəng dünyam















# QIŞIN SOVQATI

**Ələkbər Ziyatay**

A dağlara yağan qar,
Düzləri də sal yada.
Gəl-gəl deyir uşaqlar
Hər bağda, hər bağçada.

Pambıqdan ağ paltarın
Qoy bəzəsin hər yanı;
Tarlaların, bağların
Yorğanı ol, yorğanı.

Yağ, ey qar, asta-asta,
Çaylar da buz bağlasın.
Sənin suyunla yazda
Gur çeşmələr çağlasın.

Zərif naxışlar kimi
Səpildikcə sən yerə
Xəyalımda min zəmi
Canlanır birdən-birə.

Görürəm ki, uzaqdan
Quşlar qayıdıb gəlir,
Hər bir yaşıl budaqdan
Cəh-cəh səsi yüksəlir.

Ayağım altda, ey qar,
Xışıldadıqca hərdən,
Dalğalanan taxıllar
Gəlib keçir nəzərdən.

Səhər-səhər külək, qar
Pəncərəmi döyəndə
Sanıram kombaynlar
Dən sovurur düzəndə.

Novdanlardan asılmış
Büllur buz salxımları
Deyir ki, bərk gəlib qış,
Bol olar elin varı.

Deyirəm: yağ, yağ, ey qar,
Göydən yerə pay gətir,
Gül-çiçəkli bir bahar,
Bol məhsullu yay gətir.



# Şən, əyləncəli mütaliə








Biz artıq genişlənirik, dostum. Yəni daha çox dostumuz olur. Axı kitab oxumağı əyləncəyə çevirməyi bacarırıq. Bax bu yaxınlarda kitabları parka göndərdilər. Əlbəttə, əmr eləmədilər ki, «gedin». Kitabxanamızın qızları onları qəşəngcə seçdilər, çeşidlədilər, «Koala» parkına apardılar. Onlara da özüm bələdçilik edirdim (Özün bilirsən ki, İncəhörüm bütün yolları tanıyır).

Bilik Günündə həmin parkda sərgi açdıq. Qatara, yelləncəklərə minən uşaqlara kitablar, kitabxananın nəşr etdiyi «Göy qurşağı» jurnalının müxtəlif nömrələrini hədiyyə etdik. Kitabxananın bələdçisi ilə şirniyyatlı vizit kartı da balacaların xoşuna gəldi.

Hədiyyələrindən əlavə, uşaqların digər kitablarla tanış olmaları üçün şərait yaratdıq.

Hələ bu harasıdır? Uşaq yazıçıları da orada idilər. Parka gələn uşaqlar oxuduqları kitabların müəllifləri ilə görüşdülər, tanış oldular, onlarla xatirə şəkli çəkdirdilər.

Onlar «Şən, əyləncəli mütaliə» tədbirinə qatılmaqla ədəbiyyatşünas, uşaq folklorunun ən görkəmli nümayəndəsi Firidun bəy Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanası barədə xeyli məlumat əldə etdilər. Çoxlarını da artıq bizim oxu zalında görürəm.

**Səni də gözləyirəm!**
**Yoxsa özüm sizə gələcəm!**












# *Danışan kitablar*

*Oturmuşdum səkidə, ürəyim səksəkidə... Elə bu vaxt Cırtdan gəldi ki, ay İncəhörüm, nə fikrə getmisən, olmaya "Koala" parkın həvəsindəsən yenə? Gəlsənə, kömək eləsənə, sərgiyə gedirik. Sevincək atlanıb oturdum Cırtdanın papağının üstündə. Yol aldıq yarmarkaya.*

*Deyim ki, ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan III Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası sentyabrın 23-25-i arasında keçirilirdi. Bizim Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanamız da oxucularına və hələlik tanımadığı dostlarına sürpriz hazırlamışdı. Böyük ölçüdə tərtib olunmuş F.Köçərlinin "Balalara hədiyyə" kitabı, kitabxananın təqdimat baneri sərgi qarşısında qoyularaq iştirakçıların diqqətinə catdırıldı. Uşaqlar böyük monitorda kitabxanada olan ən gözəl kitabların çarxlı slaydlarını izlədilər, "Şirinlər" geyimində olan uşaqlar tədbir iştirakçılarına kitabxananın bələdçisi, vizit kartı, döş nişanları, üzərində kitabxananın loqosu olan bayraqlar payladılar.*

*Cırtdan, Tıq-Tıq xanım, Göyçək Fatma, Məlikməmməd və Biləyən kitabxana haqqında məlumat verdilər, "Danışan kitablar" isə kitabxanada olan maraqlı kitablardan söhbət açdılar.*





# Sevinc Nuruqızı




*“Ağca və Cubbulu” “Bapbalaca əlifba”nı götürüb “Paltar dolabında gizlənqaç” oynayırdılar. Onlar “Sarı qız, Dız və Vız”ın yanından keçdilər, “Ciya ilə iki gün” “Taptapmaca” dedilər, “Qəribə kəndin nağılı”nı öyrənmək üçün “Muradın yuxusu”na girdilər. “Aysu və Ay” da onlara qoşuldu, “Xortumlu dağ”a dırmaşıb “Çərpələng” uçurdular.*

***Maraqlı alınır, eləmi? İndi təsəvvür elə ki, bu qədər bir-birinə qarışan, dostlaşan, fantaziyanı lap uzaqlara aparan adını çəkdiyim qəhrəman və məkanlar hərəsi ayrı-ayrı kitabın adıdır. Onları qələmə alan da son vaxtların sevimli uşaq yazıçısı Sevinc Nuruqızıdır.***

Sevinc Nuruqızı 22 avqust 1964-cü ildə Bakıda anadan olub. 2000-ci ildən uşaq ədəbiyyatına gəlib. Adlarını çəkdiyimdən də çox kitabı var. Onların əksəriyyəti həm də rus və ingilis dillərində nəşr edilib. Dünya uşaq ədəbiyyatından tərcümə etdiyi "Üç tenqu və porsuq", "İssumbosi", “Günəşdən gələn pay”, “Sarı ağacdələn ordeni”, “Nağıla bax, nağıla” və s. kitablar balaca oxuculara gözəl hədiyyədir. Uzun müddət İctimai Radionun efirində həf-









tənin beş günü canlı yayımlanan "Çoxbilmiş" adlı uşaq verilişinin redaktoru və aparıcısı olub. "Qisas" adlı pyesi Ə. Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının, "Gəlinciklər" adlı tamaşası Salyan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulub.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası üzvü olduğu Beynəlxalq Uşaq Kitabları Şurasının (İnternational Board on Books for Young People – İBBY) 2014-cü il üzrə Hans Xristian Andersen mükafatına və qızıl medalına Sevinc Nuruqızının namizədliyini verib. Azərbaycan Yazıçılar Birliyinin üzvü, birliyin ən yaxşı uşaq əsərinə görə 2002-ci il Tofiq Mahmud adına mükafatının laureatıdır. Hazırda "Təhsil" Nəşriyyat poliqrafiya müəssisəsində böyük redaktor kimi fəaliyyət göstərir və uşaqlar üçün bir-birindən maraqlı kitablar hazırlamaqda davam edir.

Sənə Sevinc Nuruqızının “Miyoşla Tiyoşun başına gələnlər” adlı yeni nağıl-povestindən bir parçanı təqdim edirəm.

# Ay səni, Bozuş!




Miyoşla Tiyoş səhər açılandan Bozuşu necə tutacaqları barədə söhbət edirdilər. Miyoş ciddi görkəmlə Tiyoşa başa salmağa çalışırdı:

- Onu asanlıqla tutmaq olmayacaq. Bozuş səndən də, məndən də bicdir.

Tiyoş razılaşmadı:

- Məndən yox. Səndən.

Miyoş sakitliyini pozmadı. Quyruğu ilə asta-asta kürəyinə çırpdı. Tiyoşa tutarlı cavab axtardı. Və tapdı:

- Səndən bic deyil, bəs onda Bozuşu niyə tutmursan?

- Bozuşu, Bozuşu...

Tiyoş kəkələdi. Dişlərini qıcayıb Miyoşun üstünə atıldı:

- Mən tutaram, sən qoymursan.

- Kim, mən?..

Ciyiltidən mətbəxə girmək mümkün deyildi. Dalaşanları isə qapının arasındakı balaca deşikdən boylanan bir baş izləyirdi. Baş sürətlə o yan-bu yana çevrilir, heç bir şeyi nəzərdən qaçırmamağa çalışırdı. Çox şən idi. Əlbəttə, dalaşan pişiklərə baxıb şənlənən isə yalnız və yalnız siçan ola bilərdi. Elə Miyoşla Tiyoşu ləzzətlə seyr edən də özgəsi yox, onların tutmağa çalışdıqları Bozuşun özü idi. Bozuş bayram əhval-ruhiyyəsində idi. Miyoşla Tiyoşun bir-birlərinə vurduqları hər zərbə ona rəngbərəng bayram fişəngini xatırladırdı. Miyoşun əynindəki aşırmalı şalvarın ipləri qırıldığından Miyoş onu əli ilə saxlamağa məcbur idi. Dava etmək üçün yalnız bir əli qalırdı. Amma tez-tez özünü unudur, ikiəlli hücuma keçir, o saat da şalvarı sürüşüb belindən düşürdü. Bax elə bu vaxt, kaş ki, siz də mənim kimi Bozuşun sifətini görəydiniz. Bilirsiniz, onun açıq-boz rəngdə olan üzü necə işıqlanırdı?! Bozuş Miyoşun açıq qalmış yanını görən kimi əlini-əlinə vurur, sevinir, daha diqqətlə baxırdı. Elə gülürdü ki, üstü ağ xallı qırmızı donunun ətəkləri yellənir, qulaqları yelpik kimi açılırdı:

- Bozuşdan qorxan özünsən. Bir buna bax!

Tiyoş hirslə bu cümləni dəfələrlə təkrar edirdi.

- O səndən sürətlidir. O daha iti qaçır. Mənə qalsa, onu çoxdan tutmuşdum. Sən qoymursan. Həmişə əl-ayağıma dolaşırsan.

- Miyoş, mənə deyirsən? Bozuşun qorxusundan şalvarın düşüb, hələ bir danışırsan da...

Dava yenidən qızışdı. İndi artıq Tiyoş da pis kökdə idi. Köynəyinin bir qolu cırılıb belindən sallanmışdı. O biri qolu tək qaldığından tez-tez sürüşüb düşürdü. Amma bu gözəl səhnəyə hədsiz maraqla baxan Bozuş qəfildən yoxa çıxdı. Getməyi ilə qayıtmağı bir oldu. Yenə də başını həmin geşikdən çıxartdı. Bu dəfə rahat olsun deyə qapını bir az da araladı. Qaçıb yuvalarından gətirdiyi fotoaparatı gözünə tutub Miyoşla Tiyoşun dava səhnələrinin ən maraqlı anlarını çəkməyə başladı. Budur, Miyoş hücumdadır. Bir əli ilə vurur, vurur və qəfildən hər şeyi unudub o biri əlini də işə salır. Elə bu vaxt şalvar düşür. Şalvarsız vəziyyətdə Bozuş onu bu yandan, o yandan, o biri yandan çəkir. Tiyoş ortaya atılır. Köynəyinin cırılmış qolu yerlə sürünür. Bəbəkləri ikisi də burnuna sıxılıb. Quyruğu sürətlə başına çırpılır... Aha, Miyoşun şalvarı yenə də sürüşüb düşür...

Elə Bozuşa da bu qədər bəs idi. O, fotoaparatı qoltuğuna vurub aradan çıxdı. Özü də yuvaya qayıtmadı. Birbaşa şəkil atelyesinə yollandı. Anasının səhər ona məktəbdə nahar etmək üçün verdiyi pulun hamısını verib hər şəkildən bir neçə nüsxə sifariş verdi. Aradan çox az keçdi. Otaqboyu səpilmiş şəkilləri ilk görən Miyoş oldu:

- Bu nədir, bunlar kimdir?

Tiyoş da gözlərini bərəldib şəkillərə baxdı. İkisi də eyni anda vəhşi miyoltu çəkdi:

-Myao-o-o... Bozuş....

# HƏYATIN İÇİNDƏN 5 DƏRS

**Bir ətrafına bax, nə görürsən? Təbiətdə necə sirlər var? Mən deyirəm ki, ağacdələn, balıq, şir, it və ilan bəzi insanlardan ağıllıdır. Niyə? Çünki elə onların həyat tərzi özü anlayana bir dərsdir. Necə? Səbrin olsun, anladıram.**



## AĞACDƏLƏN

Hə, düzdür, ağacdələn daim başı, daha doğrusu, dimdiyi ilə ağacı deşir. Ancaq o bunu çox uğurla edir. O, belə deyək, realistdir. Çünki bir zərbə ilə ağacı iki yerə parçalamağa çalışmır. Halbuki adamların əksəriyyəti ilk cəhddən hər işin öhdəsindən gələcəklərini sanır və elə o cür də hərəkət edirlər. Ağacdələn ağacın eyni bir nöqtəsinə vurur, yavaş-yavaş da olsa, qabığın altındakı qurda doğru irəliləyir. Bəzi adamlara isə «qurd» deyil, «ilan» lazımdır, onu da olduğu yerdə, ağac qabığının altında deyil, ağacın altındakı xəzəlin içində axtarırlar. Nəticəsi də sıfır olur. Bu dərsin adı «realistik fokuslanma»dır. Yəni reallığı, öz gücünü, məqsədini nəzərə alıb bir nöqtəyə vuraraq istədiyini əldə edə bilirsən.

## İT

Və yaxud «quyruğunu birinci bula» . İyirmi birinci əsrdə sənin nə etdiyin deyil, digərlərini nəyə həvəsləndirdiyin maraqlıdır. Bunun üçün ən parlaq nümunə isə itdir. İt fikirləşmir ki: «Əvvəlcə sən məni evinə apar, yedir, içir, sonra mən sənə quyruq bulayaram» . O birinci olaraq öz hisslərini bildirir, yalnız sonra ehtiyacı olanı alır. Üstəlik, bunun üçün o, adamı məcbur eləmir. Elə edir ki, insanda ona şəfqət göstərmək arzusu yaranır.

# BALIQ

Bunu «axın dərsi » də adlandırmaq olar. Balıqlar adətən axının əksinə üzürlər. Çoxlarının fikrinin əksinə olaraq, düz də edirlər. Balıq bunu həyatını çətinləşdirmək üçün etmir, o istəyir ki, yanından daha çox su axsın. Çünki bu halda onun yanından çoxlu sayda yemək və bolluca oksigen keçir. Onun həyatı da beləliklə daha zəngin olur. İnsanlar isə balıqdan fərqli olaraq daim başqaları ilə birlikdə elə axınla «üzməyə » çalışırlar, necə deyərlər: «palaza bürün, ellə sürün ». Ona görə də 40 illik həyat təcrübəsi əvəzinə 1 illik həyat təcrübəsini, özü də 40 dəfə təkrarən qazanırlar. Adamlar rahat şəraitdən çıxmaq istəmir, sonra da təəccüblənirlər ki, həyatda imkanlar niyə belə azdır. Bir növ lotereya bileti almadan lotereyada milyonlar qazanmaq həvəsindədirlər.

# İLAN

İlanın verdiyi dərs belə adlanır: «Mızmızılıq eləmə » . «Mənim nə əlim var, nə ayağım, gözüm pis görür, arzuladığım ölkədə doğulmamışam, məni heç kim sevmir, valideynlərim mən yumurtadan çıxandan sonra mənim qeydimə qalmayıblar » . Təbii ki, heç bir ilan belə fikirləşmir. Sadəcə, olanlarından istifadə edib yaşayır. Amma halına bax: ondan qorxmayan insan varmı? İlanın nəsə xoşuna gəlməyəndə isə yanından sürünüb keçir, lazım olanda da qabığını dəyişir, heç kefini də pozmur.

# ŞİR

Şir balalarından da dərs götürmək olar, onun adı «üzünü qana boya adlanır. Şir balaları öyrənməyi bacarırlar, daha yaşlı və təcrübəlilərdən örnək alırlar. Onlar dəqiq bilirlər ki, ov etməyi bacarmaq üçün gərək sifətini qana bulayasan. İnsanlar isə onların yerinə olsalar, hətta əllərini də bulamaq istəməzlər. Təsəvvür elə ki, şirə dönmüş adam parta arxasında oturub ona ov etməyin qaydasını öyrədən dovşana qulaq asır, yaxud da yuvaya qapanıb ov eləyəcəyi barədə xəyal qurur. Ov etmək zamanı gələndə isə yeməkdən də olur, çünki nəinki ov etməyi bacarmır, hətta qan iyindən də qorxur.

Yəni nəyisə öyrənmək lazımdırsa, həmin işi bilən adama bax, özünü bilən kimi göstərənə yox.

# 5 qəribə nağıl

Qrimm qardaşlarının Rapunzel, Ağca və Qırmızıpapaq haqda nağıllarını kim bilmir ki. Ancaq bu yazıçıların yüzlərlə nağılı var. Onlardan bir neçəsi isə çox qəribədir. O qədər qəribə ki, onların psixoloji əsasını öyrənməyə onlarla alim cəhd edib. Bunlardan 5 ən qəribə və unudulmuş nağılı istəyirəm, sən də oxuyasan.

## Siçan, quş və kolbasa

Siçan, quş və kolbasa möhkəm dost idilər, birlikdə yaşayırdılar. Əvvəlcə hər şey gözəl idi: quş hər gün meşəyə uçur və ocaq üçün çır-çırpı gətirir, siçan su daşıyır, ocaq qalayır, süfrəni düzürdü. Kolbasa isə yemək bişirir, hərdən də atılıb qazana düşürdü ki, şorba daha dadlı olsun.

Bir dəfə quş yenə meşəyə uçanda başqa quşlar ona lağ elədilər: guya siçanla kolbasa bütün ağır işi onun üzərinə atıblar, özləri kef edirlər. Quş evə qayıtdı, dostlarına dedi ki, gəlin püşk atıb vəzifələrimizi yenidən bölüşək. Sabahı gün hər kəs püşkə görə işini görməyə başladı. Kolbasa çır-çırpı yığmağa getməliydi, amma darvazadan çıxan kimi onu it yedi. Siçan yemək hazırlamalıydı, kolbasa kimi şorbanın içinə atılanda bişib öldü. Quş isə ocağı qalamalıydı, amma bacarmayıb evi yandırdı. Quyudan su gətirmək istəyəndə ağır vedrəyə gücü çatmadı, quyuya yıxılıb suda boğuldu.

Deməli ki, hər kəs öz işi ilə məşğul olsa, yaxşıdır.





## Pişiklə siçanın dostluğu

Pişiklə siçan tanış oldular və bir yerdə yaşamağa başladılar. Sonra onlar qış tədarükü üçün bir küpə yağı yaxınlıqdakı kilsənin mehrabının altında basdırdılar. Bir az keçəndən sonra görməmiş pişik hər dəfə bir bəhanə ilə siçanı aldadaraq yağı tamamilə yeyib qurtardı. Havalar soyuyanda, aclıq başlayanda siçan yağ küpəsini çıxarmağa getdi. Amma boş olduğunu gördü. Bu zaman pişik fırıldağının üstünün açıldığını görüb siçanı tutub yedi.

Deməli, heç vaxt pişiyə inanmaq olmaz, xüsusilə də əgər sən siçansansa.



# Hər yoldan ötən

Toyuqla xoruz qoz qabığından araba düzəltdilər, ördəyi də məcbur elədilər onları gəzdirsin. Getdilər, getdilər, qarşılarına iynə ilə sancaq çıxdı. Dostlar qonşu kənddə çoxlu pivə içmişdilər. Toyuqla xoruzun yanında əyləşib mehmanxanaya gəldilər. Əvvəlcə mehmanxana sahibi onları içəri buraxmaq istəmədi: çox səs-küylü, xoşagəlməz idilər. Ancaq toyuq dedi ki, onunçün yumurta yumurtlayacaq, hələ ördəyi də ona verəcəklər. Sahib razılaşdı. Sabahı gün xoruzla toyuq erkən qalxdılar, mehmanxana sahibinə verdikləri yumurtanı bişirib yedilər (hanniballar!), sancağı onun məhrəbasına, iynəni kreslosuna sancdılar, ördək isə çayla üzüb getdi. Sahib yuxudan durub əl-üzünü yudu, siləndə üzünü sancaq cızdı, mətbəxə girdi, masanın üstündə yeyilmiş yumurtanın qabıqlarını gördü. Kefi pozuldu. Sevimli kreslosuna oturanda iynə ətinə batdı. Bundan sonra özünə söz verdi ki, hər yoldan ötən danışan aləti və heyvanatı evə buraxmasın.

# Qəribə şam yeməyi



Bir dəfə qan kolbasası liver kolbasasını şam yeməyinə dəvət elədi. O da sevincək qəbul elədi. Ancaq qonaq gəldiyi evdə bəzi qəribəliklər gözünə sataşdı: pilləkəndə savaşan süpürgə ilə xəkəndaz, başında böyük yarası olan meymun, daha nələr-nələr...

Otağa girən kimi liver kolbasası bunları qan kolbasasına danışdı. Amma o özünü elə göstərdi ki, guya rəfiqəsinin dediyini eşitmədi, əhəmiyyət verməyib, mətbəxə, yeməyin necə hazırlanmasına baxmağa getdi. Liver kolbasası otaqda tək qalanda səs eşitdi: «Həyatın sənə əzizdirsə, qaç, canını qurtar!» Liver kolbasası sanki bunu gözləyirmiş, bir anda elə götürüldü ki, bir də tində nəfəs dərdi. Geriyə çevriləndə qan kolbasasını pəncərədən əlində bıçağı yelləyən gördü. O qışqırırdı: «Səni tutsam, elə günə salardım!!!»

Bu nağılla yazıçıların nə demək istədiyi hər kəsə qaranlıq qalıb.



# Xurleburlebuts

Bir kral meşədə azmışdı. Qarşısında ağ cırtdan peyda oldu. Cırtdan söz verdi ki, kralı meşədən çıxaracaq, amma gərək o, kiçik qızını cırtdana versin. Kral razılaşdı. Cırtdan kralı meşədən çıxardı və bir həftə sonra qızın dalınca gələcəyini söylədi. Kral sevimli qızını vermək istəmirdi. Qızlarıyla məsləhətləşdi. Onlar dedilər ki, heç narahat olma, yoluna qoyarıq. Çobanın qızını bəzəyib-düzədilər, dedilər, kim gəlsə, onunla get. Gələn bir qəşəng tülküydü. Qıza dedi: «Mənim toppuş quyruğumun üstündə otur, Xurleburlebuts. Getdik». Yolda qıza dedi ki, onun dərisindəki birələri tutsun. Çoban qızı dediyinə əməl edəndə tülkü anladı ki, onu aldadıblar. Qızı qaytardı. Bir həftə sonra ona qazotaranın qızını verdilər. Tülkü yenə yalanın üstünü açdı, qızı qaytardı. Üçüncü dəfə kral çar-naçar balaca qızını verdi. Yolda tülkü ondan birələrini təmizləməyi xahiş etdi. Qız çığırdı: «Mən şahzadəyəm! Birə təmizləyən deyiləm!» Tülkü cırtdana çevrildi və qızla yaşamağa başladı. Bir dəfə qıza dedi: «Getməliyəm, bura üç ağ göyərçin gələcək. Ortancılı tut, başını üz. Amma əmin ol ki, məhz ortancılı tutmusan, yoxsa pis olacaq». Göyərçinlər yerə qonan kimi qız ortadakını tutub başını üzdü. Həmin dəqiqə qarşısında gözəl şahzadə peyda oldu. Sən demə, onu cadugər qadın cırtdana çeviribmiş və yalnız bu yolla tilsim açılmalıymış.

# EKOLOGİYA

## O qədər inkişaf etdilər ki...

**Deyirdilər ki, biz təbiəti qoruyuruq. Müxtəlif yeniliklər fikirləşdilər. Adını da qoydular «yaşıl texnologiya». Yəni ekologiyaya ziyan verməyən, amma həyatı asanlaşdıran texnologiya. Amma bunların elə fəsadları ortaya çıxdı ki...**



## Külək turbinləri

Küləyin bir meqavatt enerjisi 300 evi elektrik enerjisi ilə təmin edə bilər. Üstəlik, bu zaman nə hava, nə su, nə də torpaq çirklənir. Daim külək əsən yeri tapın və o sizə havayı enerji versin. İş bundadır ki, külək turbinlərinin pərləri hərləndikcə «kölgələrin oyunu» adlı effekt yaradır. Yəni onlar hərəkət etdikcə günəş şüalarını «yarır» və belə təəssürat yaranır ki, işıq nəbz kimi vurur. Bu işıq-kölgə oyunu insanı qıcıqlandırır, başını ağrıdır. Həmçinin turbinin çıxardığı aşağı tezlikli səs də insana psixi təsir edir. Belə turbinlərin yanında yaşayanlarda yuxusuzluq, baş ağrısı, qorxu və depressiya müşahidə olunur.



## Günəş batareyaları

Günəşdən işıq alıb onu enerjiyə çevirən, evdəki məişət cihazlarının bu enerji ilə işləməsini tam təmin edən günəş batareyaları artıq adiləşib. Bunları evlərin, ofis binalarının damında, hətta səhralarda da quraşdırırlar. Belə baxanda, kimə ziyanı var ki?

İş burasındadır ki, yer üzündə belə çoxlu güzgüləri quraşdıranlar hər gün havaya qalxan minlərlə təyyarə sürücüsünü unudurlar. Məsələn, Sürix şəhərinin (İsveçrə) aeroportunun rəhbərliyi yerli kilsəni damdakı günəş batareyalarını çıxarmağa vadar edib. Səbəb isə budur ki, təyyarə eniş edən zaman həmin güzgü-batareyaların işıltısı pilotları kor edir. Başqa bir eko-evin sahibi də belə etməyə məcbur olmuşdu, çünki yaxınlıqdakı hərbi bazanın pilotları hər dəfə təyyarələri kor-koranə yerə endirirdilər.

Günəş batareyalarının sayı artdıqca onların bir gün daha böyük fəlakət törədəcəyinə əminlik də artır. Alimlər deyirlər ki, Kaliforniyadakı Moxave səhrasında 170 min iri günəş batareyasının qurulması pilotların səhvə yol verməələri ilə yanaşı, quşların da kütləvi surətdə ölümünə səbəb ola bilər. Hətta hərbi hava qüvvələrinin istiliyə hədəflənən raketlərini də özlərinə çəkə bilərlər.

# Diodlu lampalar

Diodlu lampalar avtomobil qəzaları yaradır. Artıq çoxları adi közərmə lampalarını lüminessent olanlara dəyişib. Bunlar enerjiyə 80% qənaət edir, adi lampalardan fərqli olaraq 25 dəfə daha dayanıqlıdır. Adi lampanın nə qədər enerji sərf etdiyini bilmək üçün əli ona yaxınlaşdırmaq lazımdır: onun istisi kimə lazımdır ki? Diodlu lampalar isə işıq verir, amma qızmır. Yəni çox sərfəlidir, amma...

Diodlu işıqforlar isə elə də təhlükəsiz deyil və yol qəzalarına səbəb olur. Belə ki, adi işıqforlardakı lampalar qızır və qışda üzərlərinə düşən qarı əridir. Diodlu işıqforlarda isə bu mümkün deyil, çünki bu lampalar qızmır, qar və buz isə qalın qat əmələ gətirir. Qar yağanda onsuz da yolu görmək olmur, hələ işıqfor işləməsə...





## *Susuz pissuar*

*Yeni hazırlanmış pissuarlar susuz işləyir. Onlarda su əvəzinə təhlükəsiz yağdan istifadə olunur. Hər şey əvvəlcə normal idi. Amma...*

*Floridadakı bir məktəbdə 200 belə pissuar quraşdırıldı. Bir şeyi isə nəzərə almadılar: böyük miqdarda su olmasa, bütün maye borularda qalacaq. Borular isə misdən idi. Kimya müəllimi deyə bilərdi ki, mislə sidik turşusu yola getmir, amma ağlına gəlmədi. Bir gün məktəbdə bu pissuarlar daşdı, ətrafı üfunət bürüdü.*

*Deyirlər, bunun qarşısını almaq üçün bütün mis boruları plastik borularla əvəz edəcəklər. Amma heç plastik borular da ziyansız deyil axı...*

# Qənaətcil pəncərələr

Tutaq ki, adam kondisionerə pul xərcləmək istəmir, ona görə evində infraqırmızı və ultrabənövşəyi işığı əks etdirən, amma görünən işığı buraxan, enerjini qoruyan pəncərələr quraşdırıb.

Burada pis nə var ki? İş bundadır ki, belə pəncərələr bir qədər çökək olur, evə düşən işığı əks etdirməklə bahəm, işıq şüalarını yığaraq qarşısındakı obyektə tuşlayır, lap böyüdücü şüşə kimi. Əgər qarşıdakı evin divarı vinil saydinqdəndirsə (saydinq - populyar fasad örtüyü), o zaman ağızdakı iris kimi günəşin qabağında əriyəcək. Minnesotada bir ailə dəfələrlə evin üzlüyünü dəyişib. Sonra məlum olub ki, daha 25 ailə eyni problemlə üzləşib. Həqiqət ortaya çıxanda isə bu dəfə iki iri şirkət davaya başlayıb: enerjiqoruyan pəncərələri və saydinqi istehsal edən şirkətlər.

**O qədər inkişaf etdilər ki...**

# EKOLOGİYA



# QAR dənəcikləri

**Yeni il axşamı sənin şam ağacın necə görünəcək? Evi necə bəzəmək fikrindəsən, dostum? Bir-iki yaxşı ideyaya ehtiyacın varmı? Məsələn, 10 dəqiqəyə qar dənəcikləri düzəltmək, zənnimcə, pis olmaz. Əgər bəyəndinsə, haydı, başlayaq.**

**1. Böyük qar dənəsi üçün A4 formatlı kağız götür (yəni adi, ağ, yazı üçün kağız, 210x297 mm).**



**A4 kağızını yarıya böl. Hər hissəni də qısa tərəfinin üstündə kvadrat kimi kəs (artıq qalan kağızdan balaca qar dənəcikləri düzəltmək olar).**

**2. Bu cür qatla:**







**3. «Qulaqlarını» kəs – bu, qar dənəsinin ləçəkləri olacaq.**



4. Hər ləçəyin ortasınadək iki kəsik qoy.



5. Çevir.



6. Ortadakı kəsiyi mərkəzə doğru qatlayıb bərkit.





7. Hər ləçəyin ortasındakı kəsiyi eyni qaydada qatla. Bir detal hazırdır. O biri detalı da eyni qaydada hazırla.



8. Sonra bu detalları qabarıq tərəfi bayıra olmaqla ortalarından xaçvari yapışdır (bu zaman kənardan baxanda ləçəklərin sayı 4 yox, 8 olacaq). Bu da nəticəsi.



# AQATA KRİSTİ KİMİ





«Mənim yaxşı həyatım və mənə verilən bütün sevgi üçün çox sağ ol, Tanrım». Bu sözləri dünyanın ən məşhur detektiv yazıçısı Aqata Kristi 1965-ci ildə bitirdiyi avtobioqrafiyasının sonunda yazıb. Güman edirəm ki, bu qeyri-adi xanımın həyatı və yaradıcılığı barədə az-çox məlumatın var. Mən isə sənə onun bəzi maraqlı fikirlərini çatdırmaq istəyirəm.

Uşaqlıqda sevdiklərimin hamısını sonra bütün həyatım boyu da sevmişəm, məsələn, evcik oyununu.

«Qırmızıpapaq»dan Boz Canavarı çıxarın – indi isə deyin, məgər o nağıl hansısa uşağın xoşuna gələr? Həyatda mövcud olan hər bir şeylə yanaşı, bir balaca qorxuya da ehtiyacınız var.

Çox vaxt uşaq otağımda divardan asılmış tərifnamə yadıma düşür. Onun üstündə yazılmışdı: «Qatar sürə bilmirsənsə, ocaqçı ol».

Ən gözəl incəsənət əsərlərini uyğun olmayan vaxtda eşidib-görməkdən böyük səhv yoxdur. Bir çoxları üçün Şekspir onu məktəbdə öyrəndikləri üçün dəyərini itirib.

Bizim çoxumuz sənətkarıq. Bacardığımızı edir və bundan zövq alırıq. Sonra isə onu yaxşı qiymətə satmaq istəyirik. Belədirsə, ona tələb olunan forma və ölçünü verməyimiz gərəkdir. Dülgər metryarım hündürlüyü olan stulu niyə düzəltməlidir ki? Axı onda kimsə oturmayacaq.

Oxucularım məktublarında xahiş edirlər ki, miss Marpl ilə Erkül Puaronu görüşdürüm. Niyə? Əminəm ki, bu onların xoşuna gəlməzdi. Erkül Puaro xudpəsənddir, bir xanımın ona sənət öyrətməsinə dözə bilməz.

Mənim həyatı olduğu kimi qəbul etmək və isteriyaya düşməmək kimi bacarığım var. Üstəlik, istənilən vaxt və istənilən yerdə yatmaq kimi faydalı bacarığım da var.

Əgər yeni doğulmuş körpəyə hədiyyə etmək imkanım olsa idi, mən yalnız bir şeyi seçərdim: yaxşı xasiyyət.

Daim özünüzə deyin: sizi dinləmək insanları yorur. Axı, doğrudan da, niyə onları öz həyatları deyil, sizin həyatınız maraqlandırmalıdır ki?

Müharibə heç bir problemi həll etmir, qələbənin təsiri isə eynilə məğlubiyyət kimi dağıdıcıdır.

Xoşbəxt insanların hekayəsi olmur – deyəsən, belə deyirlər?

# Heykəltəraş hörümçək

Hörümçəkdən də heykəltəraş olar? Olsa-olsa, ona toxucu deyərlər, bəlkə. Yəni ən azından, tor hörür. Hə, dostum, sən elə bilirsən, təbiət sadədir?

Amazon cəngəlliklərində bir hörümçək yaşayır. O özünün tam surətini yarada bilir. Onu yenicə aşkarlayan alimlər hesab edirlər ki, bu hörümçək ovunu aldatmaq üçün belə edir. Axı yaratdığı «heykəl» özündən qat-qat böyük olur.

Heykəltəraş hörümçəkləri Cyclosa ailəsinə aid ediblər. Bu hörümçəklər tikib-qurmaqda ad çıxarıblar.

Yeni növdən olanlar isə özlərinin tam oxşarlarını yarada bilirlər.

Alimlər deyirlər ki, cəngəllikdə hərəkət edərkən hörümçək torunun üstündə təxminən 2,5 sm böyüklükdə ölü hörümçək görüblər. Birdən bu ölü hörümçək hərəkət etməyə başlayıb.



Yaxından baxanda məlum olub ki, o, elə doğrudan da cansızdır. Maraqlısı isə o idi ki, həmin o cansız iri hörümçəyi bir az aralıda oturan başqa bir balaca hörümçək hərəkətə gətirirdi. O, sanki marionetka teatrındaymış kimi ipləri tərpədərək özünün cansız surətinin ayaqlarını hərəkət etdirirdi. Alimlər əvvəllər belə bir halla rastlaşmadıqlarını bildiriblər.

Görürsən də, dostum, bu bizim İncəhörümün qohumları necə ağıllıdırlar. Bir azdan ev tikməyə başlasalar, heç təəccüblənmərəm.

# YADPLANETLİ MEDUZA





Lap qədimlərdə, hələ Yer üzündə dinozavrlar ilk addımlarını atanda, ilk köpəkbalıqları suları eninə-uzununa ölçəndə bu varlıqlar dəniz və okeanları zəbt eləmişdilər. Onlar bizim planetin ən qədim sakinlərindəndir. Hətta 500-700 milyon il əvvəl yaşadıqları deyilir. Kim bilir, bəlkə də, başqa planetdən buraya düşüblər.



Çünki görünüşləri, forma və rəngləri çox qeyri-adidir. Onların bədəni hərdən çətirə, yaxud zəngə, ya da kürəyə bənzəyir. Amma çoxunu «uçan boşqab»a oxşadanlar da var.

Bu varlıqları yunan mifologiyasındakı ilansaçlı qorxunc Meduza Qorqonanın şərəfinə adlandırıblar.

Meduza qoxu bilir, qaranlığı işıqdan ayırır.



Meduzaların 2000 müxtəlif növü var. Bəziləri şirin suda yaşayır, bəziləri isə dəniz və okeanlarda.

Onların quruluşu da heyrətamizdir: 95% su, 3-4% duz, 1-2% zülal. Nə ürəkləri, nə gözləri, nə qan dövranı, nə qəlsəmələri var...

Onlar plankton, balıq kürüsü, xırda xərçənglərlə dolanır. Sapa bənzəyən ayaqları ilə ovu cəlb edir, sonra isə tutub ağıza ötürürlər.

Meduzaların əksəriyyəti üç hissədən ibarətdir: jeleyəbənzər bədən, ovu tutan uzun «ayaqlar» və onu yeyən ağız.





Yeri gəlmişkən, meduzalar yalnız suda öz formalarını saxlaya bilir, quruya çıxarılan kimi isə yastı, yırğalanan damlaya dönür.



«Gümbəzinin» qırağındakı xüsusi bölmələrin hesabına meduza suda özünü tarazlayır. Ona üzməyə sualtı cərəyanlar kömək edir. Axına qarşı isə meduza reaktiv üsulla, yəni gümbəzinin içindəki suyu itələməklə üzür.

Əslində isə meduza – ən gözəl dəniz heyvanlarından biridir.

Onların balacası da var, «gümbəz»inin diametri 2,5 metrə çatanı da. Ən çox rast gəlinən nəlbəki boyda olanlardır.



Meduza ağciyəri, qəlsəmələri, ümumiyyətlə nəfəs orqanları olmadığı üçün bütün bədəni ilə nəfəs alır. Bədəninin qılafı çox nazikdir, ona görə də oksigen asanlıqda «dərisindən» içəri keçir.

Ən böyük meduza «şir başı» adlanır. O, Arktika dənizində yaşayır. Bədəni 2,5, ayaqlarının uzunluğu isə 37 metrdir. Demək olar ki, bir futbol meydanının yarısı.



Meduzalar müxtəlif dərinliklərdə yaşayır. Bəzisi üzdə, bəzisi isə 10 min metr dərinlikdə.



Bəzi meduzalar adamı «çalır». Onların ayaqlarında xüsusi maddə var ki, adamın, elə digər canlıların da dərisini yandırır. Bəzən belə meduzanı əzmək kara gəlmir – o, minlərlə xırda meduzaya bölünür və adamı «çalmağa» davam edir.



İnsan üçün ən qorxulu kubomeduza dəniz arısıdır (Chironex fleckeri). O, Avstraliya sularında yaşayır. Hər il onun zəhərindən azı 65 nəfər həyatını itirir. Kubomeduza dişləyəndən 3 dəqiqə sonra insan ölür.

Amma buna baxmayaraq meduzaların əksəriyyəti təhlükəsizdir.



# Bütün dünya BİR PARKDA

**Təbiət ən gözəl rəssamdır. İnsan daim ona müdaxilə edir. Bəzən dağıdır, bəzən də çox gözəl məkanlar yaradır. Sənə dünyanın ən maraqlı parklarını göstərmək istəyirəm, dostum.**



Mini Siam parkı, Tailand. Bu parkı belə də adlandırmaq olar – «bütün dünya bir parkda». Pataya yaxınlığındakı parkda dünyada olan bütün məşhur tikililərin miniatür formalarını görmək olar. Eyfel qülləsi, Tauer qülləsi, Biq-Ben, Xeops ehramı kimi 100 abidənin 1/25 nisbətdə oxşarını seyr etmək çox xoşdur, çünki keyfiyyətli və gözəl düzəldilib.



200 Budda parkı, Laos. Bu parkı Laosun dini liderlərindən biri olan Bunlıa Sulitat bu yaxınlarda salıb. Düzdür, o yarımçıq qalıb, çünki Sulitat nəhayətdə ağlını itirib, amma parkda Buddanın 200 maraqlı heykəlini toplaya bilib. Burada ilan, tanrılar, hind və buddist mifologiyasının qəhrəmanlarının heykəlləri də var. Onlardan bəzilərinin hündürlüyü 20 metr, bəziləri isə 5 yaşlı uşaq boydadır. Parkda xırda göllər, gözəl kollar, həmçinin Sulitatın mumiyalanmış cəsədi olan şüşə mavzoleyi var.

**Kosmik düşüncələr parkı, Şotlandiya.** Onun yaradıcıları, ər-arvad Çarlz Cenks və Meggi Çesvikin fikrincə, bu, oraya gələnlərdə Kainat və insanın oradakı yeri barədə dolğun təəssürat yaratmalıdır. Orada adi yaşıl kola, yaxud rahat cığıra rast gəlməzsən. Əvəzində futuristik obyektlər var. Hətta «qara dəliyə», yaxud «Kleyn» butulkasına da düşə bilərsən.





**Günahkarlar parkı, Tailand.** Psixikası möhkəm olmayanlara buraya gəlmək məsləhət görülmür. Çünki o, bir növ cəhənnəmin əksidir: öldürülən, işgəncə verilən adamların heykəlləri ilə doludur. Həmçinin parkda psixodelik mahnı və qəribə, qorxuducu hayqırtılar səsləndirilir. Yaxşı ki, tay dilindədir, turistlərin çoxu anlamır.

**Fransisk Alvorado parkı, Kosta-Rika.** Bu parkda canlı sərv ağaclarından düzəldilmiş fil, meymun və s. heyvanlara rast gələ bilərsən. Amma ən maraqlısı bitkilərdən düzəldilmiş labirintdir.





**Kökenhof çiçəklər parkı, Hollandiya.** Bu, zanbaqları ilə məşhur parkdır. 32 hektar ərazidə 100 növ zanbaq bitir. Əlbəttə, başqa güllər də var: yasəmən, səhləb, qızılgül, suzanbağı. Yazda parka 800 minədək turist gəlir. Çünki zanbaqlar çox şıltaq olduğundan park yalnız mart-may aylarında açıq olur. Hər il apreldə burada Gül paradı keçirilir. Güllərdən hazırlanmış nəhəng heykəllər nümayiş olunur.

**Şahmat parkı, Yaponiya.** Osakada stolüstü oyunlara həsr olunmuş park var. Yollar, stollar və digər obyektlər şahmat stilində quraşdırılıb. Burada şahmat, nərd, qo, dama oynamaq da mümkündür.



# Atalar və oğullar - 25 qızıl qayda

**Uşaqlar həmişə ata-analarını təkrarlayırlar. Təbii, tam surət ola bilməz – çünki dövr də fərqli olur, təbiət də, mühit də. Amma elə vərdişlər var ki, onlara bir yerdə yiyələnmək mümkündür. Haydı, valideynlərini də çağır, başlayaq.**

**«Yox» deməyi bacarmaq.** Məktəbdən dönəndə tanımadığın bir adamın sənə bilinməyən bir istiqamətə getməyi təklif etməsinə, daim səndən nəyisə alan, amma yadına salmasan, qaytarmayan sinif yoldaşına «yox» deməyi bilməlisən. Çünki nəzakətin sərhədi sənin həyatına, özünə hörmətinə, öz vaxtını dəyərləndirmənə təhlükə yaranan anadəkdir.

**Nəzakətli olmaq.** «Təşəkkür edirəm», «Buyurun», «Axşamınız xeyir» sözləri hələ kimsəyə ziyan gətirməyib. Nəzakət tanımadığınız adamlarla münasibəti sadələşdirir, istənilən söhbəti bəzəyir, ilk baxışdan açılmayacaq qapıları açır.






**Gigiyena.** Uşaq yaşlarından valideyn övladına təmiz olmağı öyrətməlidir: küçədən gələn kimi əlləri yumaq, gündə iki dəfə dişləri təmizləmək, dırnaqları müntəzəm tutmaq, duş almaq, gigiyena vasitələrindən istifadə və s. Təmizkar adamlar hamıya daha xoş gəlir.



**Təhlükəsizlik qaydalarına riayət etmək.** Həyat üçün gərəkli qaydaları avtomatizm halına gətirmək lazımdır. Əgər ata-anan sənə bir qaydanı əlli dəfə, yüz dəfə başa salırlarsa, incimə, onlar səni axmaq yerinə qoymurlar, sadəcə, yol keçəndə işıqfora baxmaq, maşın yolunda oynamamaq, elektrik avadanlıqlarıyla rəftar edərkən diqqətli olmaq və s. kimi qaydaları əzbər bilməyini, onlara riayət etməyini istəyirlər. Axı sən onlar üçün çox dəyərlisən!

**Əşyaları yerinə qoymaq.** Oynadıqdan sonra oyuncaqları yerinə yığmaq, dərsdən gələn kimi paltarları təmizləyib şkafa asmaq, tapşırıqları hazırladıqdan sonra çantanı yığmaq vərdişi gələcəkdə daha səliqəli olmağa imkan yaradır.

**Üzr istəmək.** Hər bir xırda səhvə görə uşağı utanmağa məcbur etmək yaxşı deyil. Ancaq kiminsə təsadüfən ayağını tapdalasan, yaxud itələsən, incitsən, «üzr istəyirəm», «bağışlayın» kəlmələrini işlətməmək ayıbdır. Bunu uşaq birinci elə ata-anasından görməlidir. Valideyn uşağından üzr istəməklə onda səhvlərinə başqa cür yanaşmağa, tərbiyəli olmağa vərdiş yaradır. Yəni üzr istəmək eyib deyil, əksinə, münasibətləri düzəltmək, həmçinin ədalətsiz davrandığını bildiyin halda qəlbinin sıxıntısından qurtarmaq üçün vasitədir.

**Oxumaq.** Kitab oxuyan adam heç vaxt darıxmaz. Ədəbiyyat həm dünyagörüşünü genişləndirir, həm də savadlanmağa yardım edir. Ona görə əlinə kitabı nə qədər tez alsan, həyatın bir o qədər maraqlı və zəngin keçəcək.

**Düzgün qidalanmaq.** Uşaqlar qida vərdişlərini valideynlərindən öyrənirlər. Ona görə də övladlarının sağlam böyümələrini istəyən ata-analar özləri doğru qidalanmalıdırlar. Əgər evdə böyüklər yarımfabrikatlara, fast-fuda, şirniyyata üstünlük verirlərsə, onların uşaqlarının tərəvəz və ya balıq yemək həvəslərinin çox olacağı inandırıcı deyil.



**Ətrafa dairəsinə hörmət eləmək.** Bəzi təması xoşlayan uşaqlar təzəcə tanış olduqları adamın beş dəqiqə sonra çıxıb qucağında otururlar. Ancaq nəzərə almaq lazımdır ki, hamı özünə qarşı belə etibarı sevmir. Çünki adamların özlərinə məxsus bir əhatə dairəsi var, yəni onlar kənar adamların çox səmimi toxunuşlarını, qucaqlamanı və s. sevmirlər. Həm özünün, həm başqasının şəxsi məsafəsinə hörmət etmək gərəkdir.

**Hisslərini ifadə etmək.** Stress halında böyüklər də, kiçiklər də özləri ilə nə baş verdiyini anlamalıdırlar. Evdə böyüklərlə uşaqlar arasında narazılıq, dava olarsa, valideynlər bunu övladları ilə müzakirə etməlidirlər. İnciklik, narahatlıq, qorxu hissini dilinə gətirməsən, növbəti narazılıq daha böyük davaya çevrilə bilər. Odur ki, hisslərin barədə danışmağı öyrənməlisən.

**Başqasının halına yanmaq.** Xəstə pişik balasına kömək eləmək, tənha qonşu nənəyə ərzaq almaq kimi hərəkətlər uşaqlara dünyada yeganə olmadığı fikrini aşılayar. Başqalarının ağır həyatı, ağrı-acısı barədə düzgün və açıq söhbət uşağa özünü başqasının yerinə qoymağa, həyatı daha yaxşı dərk etməyə imkan verər, şəfqətin necə vacib və lazımlı bir xüsusiyyət olduğunu öyrədər.

**Sual vermək.** Uşaqların bir «Niyə?» vaxtı olur, yəni 3-5 yaşlarında gördükləri hər bir şey barədə sual verməkdən yorulmurlar. Həmin vaxt onların suallarını cavablamamaq, başından eləmək getdikcə onlarda ətraf mühitə qarşı laqeydlik yaradar. Necə deyərlər, bilməmək eyib deyil, soruşub öyrənməmək eyibdir.



Davamı var.

# Nələr olur



Avstraliya dağlarında əvvəllər heç yanda görünməyən nəhəng çəhrayı ilbizlər peyda olub. Əvvəllər belə bir heyvanı yalnız cizgi filmində görmək mümkündü. Yeni Cənubi Uelsdəki milli parkın işçiləri deyirlər ki, bu qaranlıqda işıq saçan çəhrayı varlıqların orada necə peyda olmalarından xəbərləri yoxdur.

«Onlar çox parlaqdırlar, həddən artıq, təsəvvürəgəlməz dərəcədə parlaq, - milli parkın meşəbəyisi Maykl Merfi ABC telekanalına deyib. – Bir səhər gəldik gördük ki, parkda yüzlərlə belə çəhrayı, nəhəng ilbiz var».

Kaputar dağında tapılan ilbizlərin uzunluğu 20 sm-ə çatır. Onların rənginin və ölçüsünün niyə belə olması, ümumiyyətlə haradan gəlmələri isə hələlik sirdir.

Həmişə hər yana gecikən insanı kim sevər? Kimin üçünsə bu pis vərdişdir, amma bir adam var ki, bu, onda xəstəlikdir, yəni əqli pozuntu. 57 yaşlı Cim Danbar heç nəyi vaxtında edə bilmir, həmişə gecikir, dostları və qohumları onun bu halına artıq öyrəşiblər, həkimlər isə bu yaxınlarda ona diaqnoz qoydular: sağalmaz gecikmə meyli. Şotlandiyanın Forfar şəhərinin sakini ətrafındakıları inandırmağa çalışırdı ki, nəyisə vaxtında etməyi sadəcə bacarmır. Onlar isə bunu bəhanə sayırdılar. Uşaqlıqdan dərsə, futbol oyunlarına, bayramlara gecikən Cim böyüdükdən sonra bu xasiyyəti səbəbindən bir neçə yaxşı iş yerini itirməli oldu. Tanış olduğu qızlar da onu atırdılar: daim görüşə gecikən sevgilidən bezirdilər. Onun vaxtı özünəməxsus qavraması dostları ilə münasibətlərini korladı.

Bu yaxınlarda Cim yerli kinoteatra getməyi qərara aldı, ancaq gecikməmək üçün evdən seansa 11 saat qalmış çıxdı. Amma bu da kömək etmədi: Danbar filmə seans başlayandan 20 dəqiqə sonra çatdı. Bundan bezən kişi həkimə getdi (təbii ki, onun da qəbuluna yarım saat gecikdi). Həkim Danbarda əqli pozuntu aşkar etdi. Bu pozuntu diqqət çatışmazlığı və hiperaktivliyə bənzəyir. Bu səbəblə Cim Danbar hansısa hərəkəti yerinə yetirmək üçün lazım olan vaxtı düzgün hesablaya bilmir. Hələlik onun dərdinə çarə tapılmayıb.



# DÜNYADA?





Məşhur amerikalı entomoloq Derek Morli qarışqaların xeyli maraqlı adətlərini müşahidə edib. Məsələn, qarışqa yuxudan oyananda ayaqlarının altısını da açıb uzadır, sanki gərnəşir, sonra da çənəsini açır, elə bil əsnəyir. Bu, qarışqaların yeganə maraqlı xüsusiyyəti deyil. Bir yuvada eyni növdən olan qarışqaların bəziləri tənbəl və axmaq, bəziləri isə ağıllı və işgüzar olur.

Əgər işlək qarışqa hansısa səbəbdən yuvanı tərk edərsə, onda digərləri acından ölürlər. Hesab edilirdi ki, müxtəlif yuvalardan olan qarışqalar öz aralarında həmişə müharibə edirlər. Sonra məlum oldu ki, bir-biri ilə arası olmayan koloniyaların gənc qarışqalarını bir yerdə yaşamağa məcbur edəsən, çox mehriban olurlar.

Avstraliyadakı Darvin şəhəri müasir memarlığı ilə fərqlənir və Şimal ərazinin paytaxtı hesab olunur. Baharda bu şəhərdə çox qəribə bir iş baş verir. Yaz gələn kimi burada göydən quş «yağır». Yüzlərlə lori tutuquşusu özlərini sərxoş kimi aparır və ağaclardan yerə yıxılırlar. Bu parlaq rəngli gözəl, xırda tutuquşuları Darvin sakinləri elə yerdəncə toplayaraq evlərinə aparırlar. Həmin tutuquşuların baxışları tutqun olur, işığa ağrılı reaksiya verirlər və demək olar ki, ayağa qalxmırlar.

Bunun səbəbi barədə veterinarların bir neçə variantı var – zəhərlənmə, naməlum virus və s. Ən ağlabatan səbəb kimi isə onların sevimli qidaları göstərilir. Lori tutuquşuları gül nektarı və tozcuqlarla qidalanırlar. Onların tərkibində spirt olduğundan tutuquşuların bundan sərxoş olduğu deyilir. Xeyirxah şəhər sakinləri olmasalar, yəqin ki, lorilərin nəsli kəsilərdi. Onlara təzə meyvə və sıyıq yedirərək qulluq edirlər.

Uzağı pis görən adamlar adətən gözlərini qıyırlar ki, uzaqdakı əşyanı yaxşı seçə bilsinlər. İndi həkimlər aşkar ediblər ki, əslində gözü qıymaq elə eynəyin vəzifəsini yerinə yetirir, yəni doğrudan da uzaqdakı əşyanı daha yaxşı görməyə imkan verir. Hər şey belə baş verir: işıq bəbəyə düşür, sonra isə onu gözün torunda toplayan büllurdan keçir. Məhz orada, göz torunda, hüceyrələr işığı siqnala çevirib beyinə göndərir. Beyin o siqnalları analiz edir və biz nəyisə görürük. Əgər hansısa səbəbdən büllur bərkiyirsə (yaşlılıq, irsi meyl), o zaman dəqiq görmə xüsusiyyətini itirir.

Bunun qarşısını almaq üçünsə beyin özü müstəqil olaraq belə bir fənd yaradıb - insan nəyisə pis görəndə avtomatik olaraq gözünü qıyır. Göz qıyılanda onun əzələləri sayəsində gözün forması dəyişir, daha düzgün olur və işığın göz torunda toplanmasına yardım edir. Eynəklərin linzası da məhz belə prinsiplə işləyir.



# Çox oxusan – çox bi










## Stanislav Lem
Seçilmiş əsərləri

"Əllərimlə pulta söykənib, hələ də pırtlaşıq tükləri yanmış sifətimdə alovu hiss eləyərək, qıc olmuş halda ağzımı açaraq ionlaşmaya xas olan, his qoxulu havanı udurdum. Start anında instinktiv olaraq gözlərimi yumsam da, alov, hər halda gözlərimi kor eləmişdi".
"Solyaris" yazılanda nanotexnologiyalar təzə-təzə öyrənilməyə başlamışdı. Polşalı fantastın əsərləri, əminəm ki, diqqətini cəlb edəcək.

## Somerset Moem
Seçilmiş əsərləri

"Tüksüz Meksikalı kifayət qədər hündür və bu boyla müqayisədə arıq idi. Amma hiss olunurdu ki, fiziki cəhətdən güclü adamdır. Onda tük deyilən şeydən əsər-əlamət yox idi. Sarımtıl dərisi lap qadın dərisi kimi hamar idi. Nə qaşı, nə kirpiyi var idi..."
Görəsən, belə maraqsız görkəmi olan bu adam Moemin diqqətini nə ilə çəkib?

## Andrey Platonov
Seçilmiş əsərləri

"Nastya stuldan düşdü, salfetə bükülmüş piroqu çarpayıya aparıb, yastığın altına qoydu. Ananın yadına düşdü ki, 1 May üçün bişirəndə Semyon Yevseyeviç gələnədək soyumasın deyə o da piroqu yastığın altına qoymuşdu".
Bəzi yaşlılar sovet dövrü haqqında nostalji ilə, bəziləri qəzəblə danışırlar. Bəs əslində necə idi? Sovet vaxtı sıxışdırılan, mənəvi təzyiqlər edilən Platonovun əsərlərində bunun cavabı tam başqadır.

## Rabindranat Taqor
Seçilmiş əsərləri

“Bir dəfə qiymətli kağızların çox hissəsi oda qurban veriləndən sonra sanniasi dedi: “Sabah xalis qızıl alacaqsınız”. Həmin gecə ər-arvad səhərə kimi yata bilmədilər. Onlar xəyallarında qızıldan saray tikirdilər. Bəzən fikirləri düz gəlmirdi, mübahisə edirdilər, ancaq hədsiz sevincləri mübahisənin çox uzanmasına imkan vermirdi”. Hind həyat tərzinin bu balaca əksində nələr-nələr var... Daha dolğununu isə hind və benqal ədəbiyyatının, musiqisinin formalaşmasında, hind ictimai şüurunun inkişafında əhəmiyyətli rol oynayan Rabindranat Taqorun seçilmiş əsərlərində tapacaqsan.




## Uilyam Folkner
Seçilmiş əsərləri

Böyük Amerika yazıçısı Uilyam Folkner o yazıçılar sırasına daxildir ki, onların əsərləri dərhal deyil, tədricən, illər ötdükcə mənimsənilir, qavranılır. Onun personajları özünəməxsus bir həyat yaşayırlar. Onlar bir əsərdən o birinə köçür, bəzən ikiləşir, bəzən də, əksinə, bir şəxsdə birləşirlər.




## Con Qolsuorsi
Seçilmiş əsərləri

“Xanımlar və cənablar, mən yazıçı deyiləm. İnanın, mən adi klounam və altıncı duyğu ilə balanslaşdıranda hiss edirəm ki, dələduz...” Yox, dostum, elə bilmə ki, bu, Qolsuorsinin özü haqqında yazdığıdır. Bəs kimdir? Oxu, biləcəksən.




## Herman Melvil
“Mobi-Dik”

Amerikalı yazıçı Herman Melvili Azərbaycanda çox az adam tanısa da, Mobi-Dik barədə eşitməyən olmaz. Bəs bu Mobi-Dik nədir? – Şərin simvoludur-mu, şeytanın təcəssümüdürmü, yoxsa adi balina obrazıdır? O necədir, onun məqsədi nədir? Cavabını əsəri oxumaqla tapacaqsan, çünki yazıçı bu missiyanı məhz oxucusunun üzərinə qoyur.



# məntiqi SUAL

**1.** *Təsəvvür elə ki, əlində dördbucaqlı ələk var. Ölçüləri belədir: eni 9 sm, uzunu 14 sm, hündürlüyü 7 sm. Onun içindəki suyun həcmi nə qədər olar?*





**2. Acqarına neçə yumurta yemək olar?**

**3.** Samın anasının üç oğlu var. Ana uşaqlarını çox sevir və istəyir ki, hamısına eyni qaydada nəvaziş göstərsin. Ona görə qablarının da üstünə adlarını yazıb: Pim, Pam və … Üçüncü uşağın adı nədir?

**4.** Adam xəstəxanada yatır. Amma onun heç bir xəstəliyi yoxdur. Onu xəstəxanadan əllərində çıxardılar. O kimdir?

**5.** *Səni anbara göndəriblər. Anbar sahibi sənə bir oyun təklif edir. Qarşında 3 yeşik var. Üzərlərindəki kağızlara yazılıb: «alma», «armud», «alma və armud». Bu kağızlar isə qarışıq düşüb, yəni onların üzərində yazılanlarla yeşikdəkilər eyni deyil. Bir yeşik seçməlisən. Anbar sahibi onun içindən bir meyvə seçib əlində tutacaq. Amma əgər onun meyvəni götürdüyü yeşikdəki meyvənin nə olduğunu doğru deməsən, onu sənə verməyəcək. Necə edərsən ki, alma və armudların hansı yeşikdə olduğunu düzgün tapasan?*



**Ötən sayımızdakı (5(45)) məntiqi sualların cavabları:**

**1. Bu məsələnin cavabını, yəqin, belə hesablamısan: künclərdəki pişiklər 4-dür, hərəsinin qarşısında 3 pişik varsa, deməli, 12 edər, hər birinin quyruğunda bir pişik varsa, 4+12=16, cəmi 32 pişik edər. Əslində isə otaqda cəmi dörd pişik var. Məsələnin şərtini bir də oxu.**

2. Söhbət şamdan gedir.

**3. Elə bir şey var ki, içi boşdur və sən o boşluğu görürsən. Bu, dəlikdir.**

4. 3 ədədi bir-birinə vurarkən 36 alınması üçün 8 kombinasiya var: 3*3*4, 1*1*36, 12*3*1, 2*2*9, 6*3*2, 6*6*1, 9*4*1, 18*2*1. Şərtdə bir ipucu vardı ki, uşaqların yaşlarının cəmi evin nömrəsinə bərabərdir. Ancaq mövcud iki kombinasiyada rəqəmlərin cəmi 13 edir (6+6+1 və 2+2+9). Sonuncu ipucu birinci variantı silir, ona görə demək olar ki, uşaqların yaşları 2, 2 və 9-dur.

5.



**6. Avtobusun giriş qapıları avtobusun o biri üzündədir, bundan çıxış edərək demək olar ki, avtobus bizə nəzərən sola gedir.**

# Birlikdə Gülək

*Gülər soruşur:*
*- Ana, atamın valideynləri var?*
*- Əlbəttə, var! Yadından çıxıb? Səməd baba, Sitarə nənə.*
*- Bəs onda onlar öz uşaqlarını bizə niyə veriblər?*

*Qadın kompüter arxasında oturan ərinə yaxınlaşır:*
*- Nə olar, qoy bir az da mən oynayım!*
*- İnsafın olsun, əzizim, mən heç sən döşəməni yuyanda gəlib əlindəki əskini istəyirəm?*

*- Santa-Klaus sifariş eləmişdiniz?*
*- Ay kişi, nə Santa-Klaus! Yanvarın ikisidir e!*
*- Neyləyim e, marallarım tıxacda qalmışdı...*

*- Ana, ana! Yolka yanır!*
*- Oğlum, yanmır, parıldayır.*
*- Ana! Ana! Pərdələr parıldayır!*

*Qədim ingilis qəsrində gecə. Qonaq qaranlıq dəhlizdə o yan-bu yana qaçır. Qarşısına bir ruh çıxır. Ruh qəmli səslə deyir:*
*- Mən burada artıq dörd yüz ildir ki, yaşayıram*
*- Ay, nə yaxşı! Onda, yəqin, tualetin yerini bilirsiniz?*

*Bir kişi səhra ilə gedir. Qarşısına bədəvi çıxır, ondan soruşur:*
*- Deməzsiniz, ayaqyolu haradadır?*
*- Bu gün neçənci gündür?*
*- Bazar ertəsi.*
*- Düz gedin, şənbə günü sağa dönərsiz.*

*- Şaxta Baba, hədiyyə üçün çox sağ ol!*
*- Dəyməz, bala!*
*- Əlbəttə, mən də elə düşünürəm, amma anam dedi ki, belə deyim.*

*- Əzizim, Yeni ildə sənə nə hədiyyə edim?*
*- Mmm... hələ bilmirəm.*
*- Yaxşı, onda bir il də fikirləş.*

# BO-TAOŞİ

Yaponiyada son vaxtlar qeyri-adi bir idman növü dəbə düşüb. Hərbi müdafiə akademiyasının kursantları komandalara bölünüb bir taxta dirək üstündə savaşırlar.

Oyunçular 2,5 dəqiqə ərzində rəqib komandanın taxta dirəyini əyməyə, yaxud da yıxmağa çalışırlar. Müdafiə olunanlar üstündə «meymun» adlandırdıqları oyunçularının oturduğu dirəyi qorumalı, onu əyilməyə qoymamalıdırlar. Qələbə üçün hücum edənlərə dirəyi ən azı 30 dərəcə bucaq altında əymək gərəkdir.

Deyilənə görə, bo-taoşi adlanan bu oyun 1954-1955-ci illərdə yaranıb. Oyunda hər biri 75 nəfərdən ibarət iki komanda iştirak edir.



Maraqlıdır ki, qaydalar rəqibə güc tətbiq etməyi qadağan eləmir. Bir sözlə, düşmən dirəyinin ələ keçirilməsi adicə məhəllə davasına çevrilə bilər. Amma yapon kadetlərinin müəllimləri hesab edirlər ki, bu oyun onların tələbələrinin əsl samuraya çevrilməsində əvəzolunmazdır.







Hədis

# BİR QIŞ HEKAYƏSİ



Möhkəm qar yağmışdı, çox soyuq idi. Yolla bir araba gedirdi. İçində aqil, bir qadın və qadının balaca oğlu vardı. Buludlar o qədər sıx idi ki, bir dənə olsun, günəş şüası keçirmirdi. Sazaq ülgüc kimi kəsirdi. Aqil hiss etdi ki, donmağa başlayır. Arabadakı digər sərnişinlərə fikir verdi: qadın artıq göyərmişdi, az qala huşunu itirəcəkdi, elə uşaq da. Kişi uşağı qucağına aldı, özünə sıxdı. Qadını isə arabadan itələyib yerə saldı. Atlara da bir-iki qırmanc çəkdi.

Qadın çaşıb qalmışdı: belə də həyasızlıq olar? Onu itələyib arabadan saldı, üstəlik, uşağını da qaçırdı... Qadın qaçmağa, bağırmağa başladı. Yarım kilometr sonra arabanı haqladı. Arabaya çatanda artıq üşümürdü, əksinə, ona isti idi. Axı o qədər yolu qaçmışdı.

O zaman aqil arabanı dayandırdı, qadını arabaya mindirib dedi: «İndi hər şey qaydasındadır, bacı. Mən bunu eləməli idim, yoxsa siz ölərdiniz».


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.
**Qeydiyyat nömrəsi:** 2004
2006-cı ilin noyabrından ("Körpəm" adı ilə 2006-cı ilin martından) çıxır.
**Təşkilati dəstək:** Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**Baş direktor və təsisçi:**
Fizurə Quliyeva,
əməkdar mədəniyyət işçisi
**Baş redaktor:** Ülviyyə Gülməmmədova
**Məktəblərlə iş:** İlahə Quliyeva

**Bədii tərtibat:** Elşən Qurbanov
**Yayım üzrə menecer:** Rafət Quliyev

**Üz qabığında:** Kazımlı Sona



Müəlliflik hüququ "Göy qurşağı"na məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini və yaxud elektron variantını çap etmək və yaymaq qanuna ziddir.



Ünvan: Bakı, AZ1022
S.Vurğun küçəsi - 88.
Tel: (+99412) 597 08 51,
(+99412) 597 08 79.

**Jurnalımıza abunə olmaq istəyirsinizsə, yuxarıdakı ünvana müraciət edə bilərsiniz.**
*goyqurshagi@mail.ru*
***halfbook@mail.ru***



**Tiraj 3000**


www.facebook.com/clb.az
www.clb.az
1.20 AZN
YENİ İLİNİZ MÜBARƏK!